Tarix və onun problemləri, №1-2 2009

SAHİBƏ BUDAQOVA

# XVIII ƏSRDƏ NAXÇIVAN SİYASİ-İNZİBATİ BÖLGÜ SİSTEMİNDƏ

Naxçıvan diyarının tarixi coğrafiyasının ayrıca tədqiqat obyekti seçilməsi heç də təsadüfi deyildir. Azərbaycan xalqının tarixində özünəməxsus mövqeyi olan Naxçıvan diyarı istər inzibati-ərazi, istərsə də əhalinin məşğuliyyəti, milli və sosial tərkibi, təsərrüfat həyatı və s. baxımından əsrlər boyu ciddi dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklərin dinamikasını izləmək üçün isə, hər şeydən əvvəl, bu dəyişiklikləri şərtləndirən amilləri aşkara çıxarmaq lazımdır. Bu isə müəyyən dövr ərzində coğrafi şəraitlə tarixi proseslərin qarşılıqlı təsirini nəzərə almağı tələb edir.

Müasir dövrdə Naxçıvan diyarının tarixi coğrafiyasının öyrənilməsinin aktual səslənməsi bir də ondan irəli gəlir ki, hazırda tarixən Azərbaycan torpaqlarına göz dikən erməni ekstremistləri erməni ideoloqlarının, tarixçilərinin və yazıçılarının üzdəniraq «əsərlərinə» istinad edərək Naxçıvan diyarının da uydurduqları «Böyük Ermənistana» mənsub olduğunu sübut etməyə çalışır, Azərbaycanın bu qədim torpağını da mənimsəmək üçün dəridən-qabıqdan çıxırlar.

Azərbaycan Respublikasının öz müstəqilliyini möhkəmləndirmək uğrunda mübarizə apardığı bir dövrdə onun ayrı-ayrı bölgələrinin, o cümlədən Azərbaycanın tərkib hissəsi olan Naxçıvan diyarının tarixi coğrafiyasının tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

Naxçıvan diyarının tarixi coğrafiyasına dair az-çox məlumatları özündə əks etdirən mənbələrin bir qismini arxiv sənədləri: digər qismini isə çap olunmuş mənbələr təşkil edir. Arxiv sənədləri içərisində Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə rus məmurları tərəfindən tərtib edilmiş kameral təsvirləri xüsusi əhəmiyyət kəsb edir. Materialların məzmunundan aydın olur ki, çar Rusiyası Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsini başa çatdırmaq üçün onun ayrı-ayrı bölgələrinin sərvətləri: əhalinin milli və sosial tərkibi, kənd təsərrüfatının, sənətkarlığın, şəhərlərin vəziyyəti haqqında müfəssəl məlumat toplamağa çalışmışdır.

1831-1832-ci illərdə tərtib olunmuş kameral təsvirlər sosial-iqtisadi və tarixi-coğrafi xarakterli materiallarla zəngindir. Məhz bu materiallar əsasında biz Naxçıvan diyarının inzibati-ərazi bölgüsü, xarici sərhədləri, əhalisi, onun milli və sosial tərkibi haqqında müəyyən qədər məlumat əldə edə bilmişik. Məsələn, Naxçıvan şəhərinin 1831-ci ildə tərtib edilmiş kameral təsvirində burada 873 evin olduğunu və 1330 ailədə 5470 adamın yaşadığı göstərilir. Naxçıvan şəhərində əhalinin milli tərkibi də dəqiq rəqəmlərlə verilir. Belə ki, həmin məlumatlardan aydın olur ki, XIX əsrin əvvəllərində Naxçıvan şəhərində yaşayan 1330 ailədən cəmi 420-si erməni ailəsi idi ki, bunun da 265-i yalnız ikinci Rusiya-İran müharibəsindən sonra oraya köçürülmüşdür. Bu rəqəmlər erməni ideoloqlarının Naxçıvan haqqındakı fikirlərinin nə qədər cəfəng olduğunu bir daha təsdiq edir.

Naxçıvan diyarı səfəvilər dövlətinin tərkibində inzibati bölgü baxımından Azərbaycana aid olan dörd bəylərbəylikdən biri – Çuxur-Səd bəylərbəyliyinə daxil edilmişdir. Çuxur-Səd bəylərbəyliyinin daxilində isə Naxçıvan diyarı Qızılbaş tayfasından olan Ustaclara verilərək, onların «ölkəsi»nə çevrilmişdir [8, s.114].

XVI əsrin əvvəllərindən başlayaraq XVII və XVIII əsrin birinci yarısında Osmanlı imperiyası fasilələrlə Azərbaycanı ələ keçirmək üçün dəfələrlə bu ölkəyə yürüşlər təşkil etmişdir. Osmanlıların bu yürüşləri nəticəsində Azərbaycanın xəritəsi dəyişmiş, müharibələr Azərbaycana, o cümlədən Naxçıvan ölkəsinə böyük ziyan vurmuş, müvəqqəti olaraq ələ keçirilən

Naxçıvan diyarı və onun mərkəzi şəhəri dəfələrlə dağıntıya məruz qalmış və yandırılmışdır [2, s. 125-126].

Müharibələr nəticəsində Səfəvi hakimiyyəti tərkibindən təcrid edilən Azərbaycan ərazisində osmanlılar öz idarəetmə sistemlərini tətbiq etmiş və ilk tədbir kimi omlar ölkəni paşalıqlara və sancaqlara bölmüşlər. Bu bölgü Naxçıvan ölkəsinə də toxunmuşdur.

Səfəvilər dövründə Naxçıvan diyarının sadəcə olaraq, Ustacların «ölkəsi» olduğu məlumatından başqa, son vaxtlara qədər bu ölkənin ərazisi, onun inzibati bölgüsü haqqında heç bir məlumat əldə edilməmişdi. Osmanlıların hakimiyyəti dövründə Naxçıvan diyarının ərazisi və inzibati bölgüsü barəsində yeni mənbələr yalnız son zamanlarda aşkar edilmişdir. Bu mənbələrdən ən əhəmiyyətlisi osmanlıların ələ keçirdikləri yerlərin əhalisindən vergi toplamaq məqsədi ilə tərtib etdikləri yuxanda adı çəkilən «Müfəssəl dəftərlər»dir. Bu dəftərlərdə Naxçıvan diyarı ilə də bağlı çox qiymətli məlumatlar vardır.

Naxçıvan diyarı ilə bağlı məlumatlar verən dəftərlərdən biri də «İrəvan əyalətinin müfəssəl dəftəri»dir. 393 səhifəlik bu dəftərin 117 səhifəsi (səhifə 276-393) Naxçıvan diyarına aiddir. Dəftərdəki məlumata görə, Naxçıvan diyarı inzibati baxımdan «sancaq» kimi qeydə alınmışdır, Osmanlıların inzibati bölgüsünə görə Naxçıvan sancağı on altı nahiyəyə bölünmüşdür: Naxçıvan, Məvaziyi-Xatun, Mülkü-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bozarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Ordubad, Azadciran, Şorlut və dərənürküt. Naxçıvan sancağının kəndləri bu nahiyələrə tabe idi.

Osmanlılar dövründə Naxçıvan sancağının idarə edilməsi sancaqbəyinə, nahiyələr naiblərə, kəndlər isə kəndxudalara tapşırılmışdır.

Nahiyələrin adlarından göründüyü kimi və dəftərin verdiyi məlumatlara görə, Naxçıvan sancağının ərazisi bugünkü ərazisindən geniş olmuşdur. Belə ki, müasir Ermənistan Respublikasının tərkibində olan Yexeqnadzor, Əzizbəyov, Sisyan və Mehri rayonlarının ərazisi də Naxçıvan sancağının tərkibində olmuşdu.

Yuxanda göstərilən inzibati-ərazi bölgüsü ilə osmanlılar tərəfindən idarə olunan Naxçıvan sancağı səfəvilərin və daha sonra Əfşarların apardıqları müharibə nəticəsində türk qoşunlarından təmizlənmişdir.

Türk qoşunları Cənubi Qafqazı zəbt edərkən Səfəvi dövlətinin inzibati quruluşu və bu dövlətdə mövcud olan feodal münasibətləri barədə tərtib olunmuş müəllifi məlum olmayan «təzkirət əl-mülük» əlyazmasında da Səfəvi dövlətinin başqa əyalətləri sırasında Azərbaycan torpaqlarından bəhs olunarkən Naxçıvan diyarının da inzibati quruluşunda baş vermiş dəyişikliklərə də toxunulmuşdur.

«Təzkirət əl-mülük» əsərinin verdiyi məlumata görə, Naxçıvan ölkəsi XVII əsrin sonundan etibarən Çuxur-Səd bəylərbəyliyinin tərkibinə daxil edilmişdir. Bununla yanaşı, osmanlıların əvvəllər tərtib etdikləri dəftərindən fərqli olaraq inzibati baxımdan Naxçıvan sancaq kimi deyil, Səfəvilər dövlətinin inzibati quruluşuna uyğun olaraq tümən kimi qeydə alınıb; həmin əsərdə (əlyazmasında) osmanlılar dövründə Zar və Zəbil kimi qələmə alınan nahiyələr birləşdirilib Zar-zəbil adlandırılmışdır (hərçənd ki, həmin yerin inzibati vahid kimi nahiyə və yaxud da tümən olduğu göstərilmir) və nəhayət, bu dövrdə Sədərək adlı yeni inzibati vahid yaradıldığı haqqında da məlumat əldə edilir. «Təzkirət əl-mülük»ə görə, osmanlılar dövründən fərqli olaraq Naxçıvan diyarı Çuxur-Səd bəylərbəyliyinə tabe olan sancaqbəyi və yaxud da naiblər tərəfindən deyil, ayrı-ayrı hakimlər tərəfindən idarə olunurdu [4, s. 111].

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin daxilində gedən ictimai-siyasi və sosial-iqtisadi proseslərin nəticəsində dövlət xeyli zəifləyir, ölkədə mərkəzdənqaçma qüvvələr güclənməyə başlayır. Səfəvi dövlətində yaranmış vəziyyətdən iki böyük qonşu

dövlət – Rusiya və Osmanlı dövləti istifadə etməyə tələsdilər. Öz təbii sərvətləri və xammalı, eyni zamanda strateji mövqeyi ilə Azərbaycan Rusiya və Osmanlı dövlətləri üçün böyük əhəmiyyət kəsb edirdi [5, s. 16-36].

Rusiya hökmdarı I Pyotr 1722-ci ildə Azərbaycanın Xəzhər boyu əyalətlərini ələ keçirmək üçün özü də başda olmaqla buraya ordu çəkdi. Bu yürüşdə I Pyotrun məqsədi Xəzər dənizinin qərb və cənub sahillərini, sonra isə Cənubi Qafqazda digər yerləri ələ keçirmək, Xəzər dənizi vasitəsi ilə aparılan ticarətdə Rusiyanı şərqlə qərb arasında vasitəçi bir ölkə etməyə idi. Elə bu zaman Avropa dövlətlərinin birləşmiş orduları ilə 1686-1698-ci illərdə apardığı müharibədə məğlub olmuş və Avropada vaxtı ilə əldə etdiyi böyük ərazi itirmiş Osmanlı imperiyası da bunun əvəzində Cənubi Qafqazda yeni torpaqlar ələ keçirmək məqsədi ilə bu tərəflərə yürüş etdi.

Beləliklə, Rusiya və Osmanlı imperiyasının marağı Cənubi Qafqaz regionunda toqquşmalı oldu [6, s.39-67].

1723-cü ilin yazında Cənubi Qafqaz və şimal-qərbi İran istiqamətində hərəkət edən osmanlılar tezliklə Tiflisi ələ keçirdilər. Daha sonra osmanlı əsgərləri böyük maneələri dəf edərək Azərbaycanın ərazisinə daxil oldu [7, s.56-57, 67].

Bu vaxt ərzində Bakını tutmuş Rusiya (1723) və Osmanlı imperiyası arasında hərbi: toqquşma ehtimalı güclənirdi. Diplomatik danışıqların nəticəsində 12 iyun 1724-cü ildə Rusiya və Osmanlı imperiyası arasında İstanbulda müqavilə imzalandı. Həmin müqaviləyə görə, Xəzər dənizinin qərb sahilləri Rusiyaya, Gürcüstanın şərq hissəsi, Ermənistan, Azərbaycanın böyük bir hissəsi (xəzərsahili bölgəsi istisna olmaqla) İranın Qus və Kermanşah şəhərləri daxil olmaqla Osmanlı imperiyasının himayəsinə keçirdi [7, s.83].

Ancaq bununla İstanbul müqaviləsinin şərti bitmirdi. Tərəflər həmçinin II Təhmasibi İstanbul müqaviləsini tanıması üçün birgə təsir göstərmək barədə razılığa gəlmişdilər [3, s.33].

Şah II Təhmasibin İstanbul müqaviləsini tanımaqdan boyun qaçırması Osmanlı imperiyasına qeyd etdiyimiz müqavilədə göstərilən əraziləri ələ keçirmək üçün bir bəhanə oldu.

1724-cü ilin ikinci yarısında və 1725-ci ilin əvvəllərində osmanlılar Gürcüstanı, Ermənistanı, Azərbaycanın böyük bir hissəsini, o cümlədən 1724-cü ilin avqustunda Ordubadı, sonra isə Naxçıvanı ələ keçirdilər. 1725-ci ilin iyul ayında osmanlılar böyük çətinliklə ardı-arası kəsilməyən hücumlardan sonra Təbrizi, iki aylıq mühasirədən sonra avqust ayında Gəncəni, 1725-ci ilin axırlarında isə Ərdəbili zəbt etdilər [5, s.74-78].

Beləliklə də, Azərbaycanın böyük bir hissəsi, o cümlədən Naxçıvan ölkəsi osmanlıların tabeçiliyinə keçdi və burada Osmanlı idarəetmə üsulu tətbiq edilməyə başlandı.

Naxçıvan ölkəsinin ərazisi barədə geniş məlumat osmanlıların 1727-ci ildə tərtib etdikləri «Naxçıvan sancağının müfəssəl dəftəri»ndə vardır. Bu dəftər Azərbaycanla bağlı digər dəftərlər kimi İstanbulda, Başbakanlıq arxivində saxlanılır (№905). Dəftərin həcmi 302 səhifədir [6, s.113].

Əgər Naxçıvan dəftərinin osmanlılar tərəfindən 1727-ci ilin avqust ayında başa çatdırıldığını [6, s.113], Naxçıvan ölkəsinin isə osmanlılar tərəfindən 1724-cü ilin avqust ayında ələ keçirdiyini nəzərə alsaq, dəftərin üç il ərzində tərtib edildiyini güman edə bilərik.

Naxçıvan dəftərinin tərtib edilməsinə üç il sərf edilməsinin səbəbi bu işin çoxcəhətli olması ilə izah olunur. Dəftərin tərtibi işinə təyin olunmuş məmurlar əvvəlcə sahəcə böyük olan inzibati-ərazi bölgüsünün, əyalətin, sonra isə əyalətə daxil olan sancaq və nahiyələrin sərhədlərini müəyyənləşdirməli idilər [6, s. 113]. Bundan sonra dəftərin tərtibi başlanırdı.

Dəftərə daxil olan məlumatlar əvvəlcə ayrı-ayrı təsərrüfatlar («xanı») üzrə aparılır, sonra alınan məlumatlar kənd üzrə ümumiləşdirilirdi. Kəndlər üzrə olan məlumatlar nahiyə üzrə ümumiləşdirilirdi [6, s. 113].

Naxçıvan dəftərində nahiyə adı yazıldıqdan sonra bu nahiyəyə tabe olan bütün yaşayış məskənlərindən dövlət xəzinəsinin götürdüyü illik gəlirin həcmi qeyd edilmişdir. Bütün yaşayış məskənləri üzrə alınan gəlir nahiyə üzrə ümumiləşdirilmişdir [6, s.114].

Naxçıvan dəftərinin bu diyarla bağlı qiymətli bir mənbə kimi səciyyələndirən bir cəhəti də onun Naxçıvanın inzibati-ərazi bölgüsü haqqında verdiyi dolğun məlumatlarıdır. Dəftərin verdiyi məlumata görə, osmanlılar dövründə Naxçıvan sancağı 14 nahiyəyə bölünmüşdür ki, onlar da aşağıdakılar idi:

Naxçıvan, Əlincə, Sair Məvazi, Qarabağ, Mülkü-Arslan, Məvaziyi-Xatun, Dərəşahbuz, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürküt, Sisyan, Dərələyəz [6, s. 114].

1727-ci ildə osmanlılar tərəfindən tərtib olunmuş dəftərdə göstərilir ki, Naxçıvan diyarı inzibati-ərazi bölgü baxımından yenə də sancaq adlandırılmışdır. Bu sancaq 14 nahiyəyə bölünmüşdür. Əvvəllər bu diyarın mövcud olan Bazarçayı, Şərur və Ordubad nahiyələri 1727-ci ilin inzibati-ərazi bölgüsünə əsasən iki yeni nahiyə ilə əvəz olunur ki, bunlar da Qışlağat və dərələyəz nahiyələri adlanırdı. «Təzkirət əl-mülük»də qeyd olunan Zarzəbil və Sədərək nahiyələri osmanlılar tərəfindən tərtib edilən yeni inzibati-ərazi bölgüsünə daxil olunmamışdır.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, adları çəkilən nahiyələrin osmanlıların inzibati-ərazi bölgüsündə qeydə alınmaması, sonralar isə bölgədən çıxarılması və eyni zamanda yenilərinin adlarının bölgəyə daxil edilməsi ya osmanlıların Naxçıvan sancağının sərhədlərini dəyişdirmədən sancağın daxilində apardıqları dəyişikliklərin, ya da ki, Naxçıvan sancağının ərazisinin böyüdülməsi və yaxud da kiçildilməsi nəticəsində baş vermişdir.

Osmanlıların yürütdüyü idarəetmə üsulu nəticəsində Naxçıvan sancağından hər il böyük gəlir – 2629059 aqça [1, s.115] əldə edilirmiş.

Osmanlılar Naxçıvan sancağından böyük gəlir götürmək üçün dəftəri tərtib etdikləri zaman bütün əmək qabiliyyəti olan kişilərin evli və yaxud da subay olmasına məhəl qoymadan adlarını dəftərdə qeyd edir, bütün yaşayış məskənlərinin adlarını, hətta heç kimin yaşamadığı, ancaq gəlir gətirə biləcək kəndlərin adlarını da dəftərdə yazmağı unutmamışdılar [1, s.115].

Osmanlıların işğalı dövründə Naxçıvan sancağının kənd təsərrüfatına xas olan cəhətlərindən biri də bu sancaqda taxılçılıq, üzümçülüklə bərabər, maldarlıq, bostançılıq və digər təsərrüfat sahələrinin də inkişaf etməsi idi. Bu da təsadüfi deyildi. Türkiyə işğal etdiyi torpaqlardan gəlir əldə etmək naminə məhsuldar qüvvələrin inkişafına ciddi nəzarət edirdi. Məhz bu baxımdan da osmanlılar qeyd edilən sahələrin təsərrüfat həyatının inkişafına fikir verməklə bərabər, əhalinin qazanc götürdüyü bütün məşğuliyyətinə vergi qoymuşdular. Ümumiyyətlə, xəzinəyə gəlir gətirən bütün obyektlərin adları, hətta sıradan çıxmış dəyirmanların da sayı dəftərə salınmışdı [1, s.120].

Bu idarə üsulu ilə Naxçıvan sancağı 1735-ci ilə qədər osmanlıların tabeliyində olmuşdur.

Səfəvi dövlətinin osmanlılar tərəfindən işğal edilmiş torpaqlarını geri almaq uğrunda İranın gələcək hakimi Nadir Qulu xanın (Nadir Şah) apardığı uğurlu müharibə nəticəsində osmanlı qoşunlarından təmizlənən Naxçıvan diyarı heç də ağ günlərə çıxmadı.

1736-cı ildə özünü şah elan edən Nadir Şah Əfşar Muğan qurultayında onun namizədliyinin əleyhinə çıxan-azərbaycanlılara divan tutdu [5, s.98-118]. Bu qəbildən naxçıvanlılara da az işgəncə verilmədi. Nadir Qulu xanın şah olmasına etiraz etdiklərinə görə Kəngərli tayfasının bəzi nüfuzlu nümayəndələri də Əfqanıstana sürgün edildi [5, s.98-118].

### *ƏDƏBIYYAT*

1.Bünyadov Z.M., Məmmədov H.M. Naxçıvan dəftəri. Bakı, Elm, 1996.
2.Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, Elm, 1977.
3.Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı, Elm, 1986.
4.Təzkirət əl-mülük».
5.Алиев Ф.М. Антииранские выступления.
6. Бунятов З.М., Мамедов Г.М.. Пространный дефтер сандажака Нахичевань. 1727 года (общая характеристика) // Средневековой Восток. Баку, 1990.
7.Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, Элм, 1993.
8.Эфендиев О.А. Территория и границы Азербайджанских государств в XV-XVI вв. // Историческая география Азербайджана. Баку, Элм, 1987.

**САХИБА БУДАГОВА**
***кандидат исторических наук***
***Отдел исторической географии Института Истории АН Азербайджана***

## НАХЧЫВАН В СИСТЕМИ АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЙ ДЕЛЕНИИ В XVIII ВЕКЕ

Не случайно история географии Нахчыванскаго края является объектом особого исследования. На протяжении веков занимающий самобытное место в истории азербайджанского народа Нахичеванскии край, подвергался серьёзным изменениям как с административно-территориальной, так и с точки зрения занятости населения, национального и социального состава, хозяйственной жизни и т.д. для прослеживания динамики таких и изменений, прежде всего, необходимо выявить факторы, обуславливающие эти изменения. А это требует принять во внимание взаимодействие географических условий с историческими процессами в определенный период.

В нынешнее время изучение исторической географии Нахчыванского края актуально ещё и потому, что армянские экстремисты, на протяжении истории претендующие на азербайджанские земли, в настоящий момент, ссылаясь на так называемые «произведения» армянских идеологов, историков и писателей, стараются также доказать принадлежность Нахчыванского края к «Великой Армении», любыми средствами пытаясь присвоить себе эту древнюю землю.

В период борьбы Азербайджанской Республики за укрепление своей независимости, исследование исторической географии отдельных её регионов, в том числе Нахчыванского края, являющегося её составной' частью, представляет собой важное научное значение.

Часть материалов, отражающих в себе историческую географию Нахчыванского края, представлена архивными документами; другую же часть составляют напечатанные источники.

Среди архивных документов особую значимость имеют камеральные описания, составленные русскими чиновниками в период захвата Азербайджана Россией. Из содержимого этих материалов становится ясно, что царская Россия старалась собрать достоверную информацию о богатстве отдельных регионов Азербайджана, а именно; национальный и социаль-

ный состав населения, состояние сельской промышленности, ремесленничества, городов, для завершения экономического присвоения Азербайджана.

Камеральные описания, составленные в 1831-1832 гг. богаты материалами социально-экономического и историко-географического характера. На основании именно этих материалов мы получили определенное количество информации об административно-территориальном делении Нахичеванского края, о его внешних границах, населении, его национальном и социальном составе. К примеру, в камеральном описании города Нахчыван, составленном в 1831 г. указывается, что здесь имеется 873 дома и в 1330 семьях проживает 5470 человек.

Национальный состав жителей города Нахчыван также указан в конкретных цифрах. Так, из тех же материалов становится ясно, что в начале XIX века из 1300 семей, проживающих в городе Нахчыване, всего 420 были армянскими семьями и 265 последних переселились туда только после второй Русско-Иранской войны. Эти цифры ещё раз подтверждают, насколько бессмысленны идеи армянских идеологов о Нахчыванс.

**SAHIBA BUDAGOVA**
***candidate of historical science***

## NAKHCHIVAN ON THE SYSTEM OF POLITICAL-ADMINISTRATIVE DIVISION AT THE 18$^{TH}$ CENTURY

At present when Azerbaijan is struggling for consolidation of her independence investigation of historical geography of separate regions, including a part of Azerbaijan Nakchivan is of great scientific importance.

A part of sources more or less reflecting historical geography of Nakhchivan comprise archival documents, the other part are published sources.

Among the archival documents cameral description compiled by Russian officials during the invasion of Azerbaijan by Russia are of particular importance. From the content of the materials comes clear that in order totally to master the economy of Azerbaijan tzarist Russia had tried to gather a detailed information about the national and social content of the population, about the state of agriculture, handicraft and the state of the cities in separate region.

***Rəyçilər: t.e.d.İ.Bağırova, t.e.d.Q.Ə.Əliyev.***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycanın yeni tarixi» şöbəsinin 27 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***